Sevinc Nuruqızı

# Tap Tapmaca



Redaktor: Gülər Mehdiyeva
Korrektor: Ülkər Şahmuradova
Rəssam: Arif Quliyev
Kompyuter tərtibatı: Təhmasib Mehdiyev

*Sevinc Nuruqızı*
**N89 Tap-tapmaca**. Bakı, «Təhsil», 2009, 12 səh.

*Müəllif hüquqları qorunur. Nəşriyyatın xüsusi icazəsi olmadan bu kitabı çap etdirmək, yaymaq və illüstrasiyalarından istifadə etmək qadağandır!*

$N\frac{4803060202}{053}$ 2009

© «Təhsil», 2009

Qıpqırmızı donunda
Vardır qara xalları.
Kimi desən, gətirər
Tanıyır o yolları.

Bağçamızda nənəmin
Yumağı düşüb qalıb.
Bir yumağa nə qədər
İynə ilişib qalıb.




Dəmirdəndir onun yolu
İçi adamlarla dolu.
Altında var təkərləri
Gəzib gələr şəhərləri.

Özündən ağır
Yükü daşıyır.
Yerin altında
Rahat yaşayır.

Götürüb qaçdım onu
Yağışda açdım onu.
Məni yaxşı qorudu
Bax, başım qupquru.


Köynəyi daş kimi bərk
Geyinsə, yox qorxusu.
Paltarını soyunmur
Töküləndə yuxusu.


Odun yeyir o
Gündüz və gecə.
Odun yeməsə
İsinər necə?!

Dördkünc qutuya
Bir dünya sığar.
Nə bilsə, tezcə
Bizə çatdırar.

Upuzun bir quyruğu var
İşi çoxdur, buyruğu var.
Şiş ucuyla gedir-gedir
Qırışları tez yox edir.


Üz-üzədir iki bıçaq
İkisi də əsl qoçaq.
Nəyi versən, kəsər onlar
Kəsməsələr, küsər onlar.
Soba yanında bir yumaq
Boz, qara, ya da ki, dümağ.
Yatmaqdan açılmaz gözü
Miyoltuyla deyər sözü.



Bizə qoza tullayır
O, palıdın başından.
Alov dilimi kimi
Şütüyür az yaşından.

Taqqıldadıb ağacı
Axtarır cücüləri.
Gündüzlər çox çalışır
Dincəlir gecələri.

Gör bir necə yekədir
Vardır qarası, ağı.
Biri sevər meşəni
Biri sevər buzlağı.


Bu evdə hamı qohumdur
Döşəmə mum, divar mumdur.
Mənzillərin içi şirə,
Şirin ev kimindir belə?!



Kürəyində evciyi
Buynuzunda gözləri.
O getdiyi cığırda
Qalır zərli izləri.

Onunla dırmaşdım dama
Çox kömək edir adama.
Əldə gəzən pilləkəndir
Hara buyursan, gedəndir.


Səsi gəlir gölməçədən
Eşidir keçən küçədən.
Gölməçəyə tulla bir daş
Kəssin səsini bu qardaş.
Göyün üzündə
Rəngbərəngdir o.
Yeddi çiçəkli
Bir çələngdir o.
Həyətdə dayanar damı
Qorxudar keçən adamı.
Qoruyar evi-eşiyi
Yaxına qoymaz pişiyi.

Yaşıl tut yarpağından
Ağ ipək düzəldir o.
Doğrusu, nə çirkindir
Nə də ki, gözəldir o.





Vardır sıra-sıra dişi
Bax, başından aşır işi.
Kəsir taxtanı, odunu
Axtar, taparsan adını.

Bir az boz, bir az aladı
Bu quş çox dəcəl baladı.
Qışda bizi atıb getməz
Cikkildəyib çıxardar səs.

Yumru qarnı suyla dolu
Dəmirdəndir onun donu.
Od salsan, tezcə qaynayar
Həm oxuyar, həm oynayar.


Onun üstüylə
Keçmişəm çayı.
O birləşdirir
O tay-bu tayı.

Tələdən qaçırdar əti
Bax budur onun sənəti.
Keçər kiçik deşiklərdən
Yaman qorxar pişiklərdən.

Var qırmızı pipiyi
Odur tapan qəpiyi.
Oxuyur quq-qulu-qu
Tapın görək, nədir bu?!

Anam axşam onu qurur
Səhər çığıranda durur.
Gonbul qarnı titrəyir, bax
Mən tənbələm, o çox qoçaq.

# «Təhsil» nəşriyyatından balalara töhfə!




**Tapmacaların cavabları:**

1) Parabüzən; Kirpi.
2) Qatar; Qarışqa; Çətir.
3) Tısbağa.
4) Soba; Ütü; Televizor.
5) Pişik; Qayçı.
6) Ağacdələn; Dələ; Ayı.
7) Arı.
8) Nərdivan; İlbis.
9) Qurbağa; Göy qurşağı; İt.
10) İpəkqurdu.
11) Mişar; Sərçə; Samovar.
12) Siçan; Körpü; Xoruz; Zəngli saat.



**Sevinc Nuruqızı**
*(İmanova Sevinc Nuru qızı)*
Tap-tapmaca
Bakı, «Təhsil», 2009.

Çapa imzalanmışdır: 17.07.2009.
Kağız formatı 70x90 1/12
Sifariş 68. Qiyməti müqavilə ilə.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121^A